## Qeyri-neft sektorunda ixrac potensialı güclənir

Bunu xarici iqtisadi fəaliyyət iştirakzılarının sayının artımı da təsdiqləyir

İqtisadiyyatın neft-qaz gəlirlərindən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafı və ixracın stimullaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirən Azərbaycan xarici ticarət dövriyyəsinin strukturunda da müsbət keyfiyyət dəyişikliklərinə nail olub. 2012-ci ilin birinci yarısında respublikanın xarici mövqeyinin əlverişliliyi qorunub, xüsusilə qeyri-neft sektoru üzrə məhsul və xidmətlərə yüksək tələbin mövcudluğu şəraitində xarici ticarət balansında iri həcmli profisit yaranıb.

***Xarici iqtisadi fəaliyyət iştirakçılarının sayı artır***

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2012-ci ilin yanvar-iyun aylarında respublikanın dövlət və qeyri-dövlət təşkilatları, eləcə də fiziki şəxslər tərəfindən 135 xarici dövlətlə ticarət əməliyyatları aparılıb. Bu dövrdə xarici ticarət dövriyyəsi 22 milyard 167,6 milyon ABŞ dolları təşkil edib və bunun da 4 milyard 460 milyon dolları idxalın, 17 milyard 707,6 milyon dolları ixracın payına düşür. Xarici ticarətdə, ümumilikdə, 13 milyard 247,6 milyon dollarlıq müsbət saldo yaranıb. İlin birinci yarısında ölkədən 776 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib və bu da 2011-ci ilin eyni dövrü ilə müqayisədə 6,2% çoxdur.

Qeyd olunan müddətdə xarici iqtisadi fəaliyyət iştirakçılarının sayı artaraq 6246-ya yüksəlib. Xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən MDB üzvü olan ölkələrə 537 milyon 354 min manatlıq, Avropa İttifaqı ölkələrinə 5 milyard 965 milyon 979 min manatlıq, digər ölkələrə isə 6 milyard 208 milyon 172 min manatlıq mal və məhsullar ixrac olunub.

Xarici ticarət əməliyyatlarının beşdə dörd hissəsindən çoxu (84,9%) İtaliya, İsrail, Fransa, İndoneziya, Rusiya Federasiyası, Türkiyə, Amerika Birləşmiş Ştatları, Almaniya, Hindistan, Çin, Bolqarıstan, Böyuk Britaniya, Gürcüstan, Yunanıstan, Ukrayna, Sinqapur, Tailand və Cexiya ilə aparılıb. İxracda xam neft, neft məhsulları, təbii qaz, kimya sənayesi məhsulları ilə yanaşı, pambıq lifi, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium, habelə meyvə-tərəvəz, bitki və heyvan mənşəli yağlar, alkoqollu və alkoqolsuz içkilər üstünlük təşkil edib.

***Qanunvericiliyə dəyişikliklər ixracı stimullaşdırır***

Azərbaycandan ixracın əsas hissəsi, təbii olaraq, neft və neft məhsullarının payına düşsə də (86,50%), xarici bazarlarda rəqabətə davamlı məhsullar istehsal edən sahibkarlıq subyektlərinin sayının tədricən artımı qeyri-neft sektoru üzrə ixrac potensialının möhkəmlənməsinə imkan yaradıb. Sahibkarların xarici bazarlara çıxış imkanlarının genişlənməsi həm də qanunvericiliyin təkmilləşdirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi ilə izah olunur. Ölkə başçısının 11 noyabr 2008-ci il tarixli «Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında» fərmanı əlverişli geostrateji məkanda yerləşən Azərbaycanda gömrük sisteminin təkmilləşdirilməsinə, bu sahədə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadəyə imkan yaradıb. Ümumilikdə, sözügedən fərman dövlət sərhədinin keçid məntəqələrinin buraxılış qabiliyyətinin artırılmasına; keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılması zamanı süni maneələrin aradan qaldırılmasına; idxal-ixrac əməliyyatlarının müasir tələblərə uyğun aparılmasına; bu sahədə «bir pəncərə» prinsipinin tətbiqinə xidmət edir.

Nazirlər Kabinetinin 2011-ci il 8 fevral tarixli qərarı ilə təsdiq olunmuş «2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı» da ixracın stimullaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Tədbirlər Planında müəssisələrdə istehsal prosesinin qabaqcıl texnologiyalar əsasında təşkili üçün sahibkarlıq subyektlərinin dəstəklənməsi ilə yanaşı, ixrac prosedurlarının sadələşdirilməsi, ixrac məqsədli məhsulların istehsalının kreditləşdirilməsi, ixrac üçün perspektivli sayılan ölkələrdə müvafiq sərgilərin, forumların təşkili, potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılması və digər tədbirlər əksini tapıb.

***Elektron idxal-ixrac əməliyyatlarına başlanılır***

«Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası layihəsində də respublikanın yüksək rəqabət qabiliyyətinə malik məhsullar ixrac etməsi qarşıya başlıca vəzifələrdən biri kimi qoyulub. Həyata keçirilən tədbirlər nəticəsində qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin 1000 ABŞ dollarına çatdırılması nəzərdə tutulur. Bunun üçün yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyatın formalaşdırılması da prioritet məqsədlərdən biridir.

İnfrastrukturun müasirləşdirilməsi, iş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün güzəştli kreditlərin verilməsi, investisiyaların cəlbinə mane olan bürokratik amillərin aradan qaldırılması, o cümlədən elektron xidmətlərin həcminin genişləndirilməsi tədbirləri də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, gömrük xidmətlərinin təşkili məqsədilə idxal-ixrac əməliyyatları ilə məşğul olan xarici iqtisadi fəaliyyət iştirakçıları 2012-ci il sentyabr ayının 1-dək komitənin internet səhifəsində «Elektron gömrük xidmətləri üzrə xarici iqtisadi fəaliyyət iştirakçısının qeydiyyatı» bölməsində qeydiyyatdan keçiblər.

Ölkə sahibkarlarının ixrac potensialının artırılmasında yeni nəqliyyat-kommunikasiya layihələri də mühüm rol oynayır. Məsələn, «İpək yolu», şimal-cənub nəqliyyat dəhlizləri ilə yanaşı, 2013-cü ildə istismara verilməsi nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmir yolu xətti, habelə Ələt qəsəbəsində tikilməkdə olan Beynəlxalq Dəniz Ticarət Limanı ixracın genişləndirilməsinə mühüm töhfə olacaq.

***Keyfiyyətdə Avropa standartları...***

İxracın genişləndirilməsi baxımından Azərbaycanda istehsal olunan mal və məhsulların keyfiyyətinin Avropa standartlarına çatdırılması da vacib məsələlərdən biridir. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bu məqsədlə indiyədək 100-dən çox milli standartı Avropa standartına uyğunlaşdırıb. Məqsəd ölkədəki bütün keyfiyyət standartlarının, eləcə də sovet dövründə qəbul edilmiş «QOST» standartlarının mərhələli şəkildə Avropa standartlarına uyğunlaşdırılmasıdır.

Özəl sektorun ixrac potensialının möhkəmlənməsinə AZPROMO - İxracın və İnvestisiyaların Təşviqi Fondu da yaxından dəstək verir. Qurum sahibkarların işgüzar əlaqələrinin inkişafı məqsədilə həm ölkə daxilində, həm də xaricdə müxtəlif biznes-forumlar, sərgilər, seminar və konfranslar keçirilir.

Qeyri-neft sektorunda icrac potensialının yüksək olduğunu deyən AZPROMO-nun mütəxəssisi Teymur Tağıyev bildirir ki, hazırda Azərbaycandan Kanada, ABŞ, Avstraliya və Rusiyaya meyvə şirələri, bir sıra Avropa ölkələrinə isə qoz və fındıq ixrac edilir: «Azərbaycanda istehsal edilən meyvə şirələri, xüsusilə də nar şirəsi dünya bazarında maraqla qarşılanır. Hazırda dünya bazarında nar şirələrinə, fındığa tələbat təklifdən çoxdur. Yaxın zamanlarda yaradılacaq Meyvə Şirələri İstehsalçıları Alyansında ilk olaraq 7, Fındıq və Qoz Məhsulları İstehsalçıları Alyansında isə 4 şirkət təmsil olunacaq. Gələcəkdə bu şirkətlərin sayının artacağı da gözlənilir. Alyanslar tərəfindən Azərbaycanın fındıq, qoz məhsulları və meyvə şirələrinin daxili və xarici ölkələrdə təqdimatının keçirilməsi, habelə yerli bazarda təşviqinin aparılması nəzərdə tutulur».

Samir MUSTAFAYEV